

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 90 (23.732)

20 may 2021-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası son 20 ildə iqtisadi artımın templərinə görə rekordsmen diyardır

### Böyük tarixi əhəmiyyətə malik 15-ci səfər

Naxçıvan Muxtar Respublikası ölkəmiz üçün, ümumilikdə, bütün Türk dünyası üçün çox böyük geostrateji əhəmiyyətə malik mühüm məkandır. Təsadüfi deyil ki, dahi şəxsiyyət Heydər Əliyevin düşünülmüş və uzaqgörən siyasətində bu amil həmişə üstün yer tutub, müdrik dövlət xadimi siyasi fəaliyyətinin ayrı-ayrı dövrlərində həmişə Naxçıvanın təhlükəsizliyinin möhkəmlənməsinə və dayanıqlı inkişafına xüsusi diqqət və qayğı göstərib. Azərbaycan Prezidenti cənab İlham Əliyevin mayın 10-da Naxçıvan Muxtar Respublikasına səfəri də bu baxımdan böyük əhəmiyyət kəsb edir. Dövlətimizin başçısının səfər çərçivəsində Azərbaycan Televiziyasına verdiyi müsahibədə səsləndirdiyi fikirlər bir daha onu göstərir ki, muxtar respublikanın inkişafının və təhlükəsizliyinin tam təmin edilməsi istiqamətində həyata keçiriləcək tədbirlər bundan sonra da uğurla davam etdiriləcək.

Səfərin ulu öndər Heydər Əliyevin doğum günündə reallaşması isə təsadüfi deyildi. Dövlətimizin başçısının vurğuladığı kimi: ***“Tarixi Zəfərdən sonra bu, atamın birinci doğum günüdür. Ona görə mən hesab etdim ki, ənənəvi olaraq onun məzarını ziyarət edəndən sonra onun Vətəninə – Naxçıvana gəlim. Hesab edirəm ki, bu səfərin çox böyük rəmzi mənası var. Qeyd etdiyim kimi, mən 15-ci dəfədir ki, Naxçıvana gəlirəm. Amma ilk dəfə mayın 10-da Naxçıvandayam. Bu doğum günündə mütləq burada olmalıydım”.***

### Yeni obyektlərin açılışının gerçəkləşməsi dövlətimizin iqtisadi qüdrətinin göstəricisidir

Bu gün Naxçıvan sürətlə inkişaf edir. Dövlətimizin başçısının böyük diqqət və qayğısı, fədakar naxçıvanlıların gərgin zəhməti nəticəsində muxtar respublikanın kənd, qəsəbə və rayon mərkəzlərinin 90 faizə yaxını artıq ən yüksək səviyyədə yenidən qurulub, abadlaşdırılıb. Muxtar respublika sakinləri şəhərlərimizin, kəndlərimizin abadlaşdırılması, yeni-yeni gözoxşayan binaların, sosial obyektlərin inşa edilməsi istiqamətində görülən işləri ulu öndərimizin siyasi xəttinin bəhrələri kimi dəyərləndirir, daim bu siyasi xəttə sadiqlik nümayiş etdirirlər.

Azərbaycan Prezidentinin növbəti səfəri zamanı da çox böyük sosial-iqtisadi, hərbi önəmə sahib yeni obyektlərin açılışı oldu. Dövlətimizin başçısı Naxçıvan Beynəlxalq Hava Limanının yeni uçuş-enmə zolağının təqdimatında, Əlahiddə Ümumqoşun Ordunun hərbi aerodromunun açılışında iştirak etdi. Ölkə rəhbəri, eləcə də “ASAN xidmət” mərkəzinin binasının tikintisi ilə tanış oldu, “Azərxalça” ASC-nin Naxçıvan filialının, Süni Mayalanma Mərkəzinin və Naxçıvan Qarnizonu Mərkəzi Hospitalının, Culfa-Ordubad magistral avtomobil yolunun açılışlarına qatıldı. Prezident Ordubad Su Elektrik Stansiyasının tikintisi, dəmir yolu stansiyasında aparılan yenidənqurma işləri ilə tanış oldu, “Ordubad rayon mərkəzi və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsinin açılışında iştirak etdi. Bütün bunlar muxtar respublikanın bu günü və gələcək inkişafı, təhlükəsizliyi üçün çox böyük əhəmiyyət kəsb edən obyektlərdir. Blokada vəziyyətində yaşayan Naxçıvanda həyata keçirilən kompleks quruculuq işləri Azərbaycan dövlətinin iqtisadi qüdrətini, inkişafını və tərəqqisini təcəssüm etdirir.

Dövlətimizin başçısı muxtar respublikada həyata keçirilən məqsədyönlü tədbirləri, kompleks quruculuq işlərini yüksək qiymətləndirərək deyib: ***“Naxçıvan sürətlə inkişaf edir. Bütün sahələr üzrə işlər müsbət istiqamətdə gedir. Bu gün bir neçə infrastruktur layihəsinin açılışında iştirak etmişəm, o cümlədən Ordubad şəhərində içməli su və kanalizasiya layihəsinin istifadəyə verilməsini qeyd etmişik. Yollarla, elektrik***



***təchizatı, qazlaşdırma ilə bağlı – bütün istiqamətlər üzrə muxtar respublikada görülən işlər məni çox sevindirir. Təkcə onu demək kifayətdir ki, qazlaşdırmanın səviyyəsi artıq 100 faizə çatıb. Elektrik enerjisi ilə təchizat 100 faizə çatıb və Naxçıvanda çox böyük enerji potensialı yaradılıb. Vaxtilə Naxçıvanda işıq yox idi, enerji yox idi. Azərbaycandan gələn xətlər də Ermənistan tərəfindən kəsilmişdi. İndi isə Naxçıvan özünü elektrik enerjisi ilə tam təmin edir və bərpa olunan mənbədən istifadə edir. Bu, çox önəmlidir. Çünki bu, Naxçıvanın gözəl təbiətinə və ekoloji vəziyyətinə töhfə kimi qəbul edilməlidir.***

***Bütün şəhərlər artıq magistral yollarla bir-birinə bağlanıbdır və Naxçıvanda olan hər bir insan bunu görür. Yollar çox keyfiyyətlə tikilir, mən bu yolların açılışlarında iştirak etmişəm, bəzi yollar çoxdan istismara verilib, amma buna baxmayaraq, keyfiyyət də yerindədir. İçməli su layihələri bütün şəhərləri əhatə edir. İndi üç şəhərdə bu layihələr icra ediləcək və beləliklə, bu məsələ də tamamilə öz həllini tapacaq”.***

### Naxçıvan özünün sosial-iqtisadi tərəqqi dövrünü yaşayır

Muxtar respublikada hər addımda milli maraq və mənafelərimiz uca tutulur, əhalinin sosial rifah halının daha da yüksəldilməsi, həyat şəraitinin yaxşılaşdırılması üçün işlər böyük əzmkarlıqla həyata keçirilir. Pozitiv meyillərlə səciyyələnən sosial-iqtisadi tərəqqinin əsas hərəkətverici qüvvəsi olan azad rəqabət, investisiya mühitinin daha da yaxşılaşdırılması, sahibkarlığın inkişafının təşviqi üsullarından geniş istifadə olunması bu istiqamətdə yeni-yeni uğurlara yol açıb.

Ötən illər ərzində görülən işlərin nəticəsidir ki, muxtar respublikada fəaliyyəti bərpa edilmiş və ya yenidən qurulmuş istehsal müəssisələrində 127 növdə, 608 çeşiddə ərzaq, 257 növdə, 925 çeşiddə qeyri-ərzaq olmaqla, ümumilikdə, 384 növdə, 1533 çeşiddə məhsul istehsal olunur. İstehsal edilən 108 növdə ərzaq, 242 növdə qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsi idxaldan asılılığın ciddi şəkildə azaldılmasına, əhalinin tələbatının keyfiyyətli məhsullarla ödənilməsinə şərait yaradıb.

Muxtar respublikada 2000-ci ildən ötən dövr ərzində dövlət tərəfindən 1529 layihənin maliyyələşdirilməsinə 169 milyon manatdan çox güzəştli kreditlər ayrılıb. Həmin vəsait sənaye, xidmət və kənd təsərrüfatı təyinatlı müəssisələrin yaradılmasında istifadə olunub. Bu gün muxtar respublikada geniş profilə malik sahibkarlıq subyektlərinin fəaliyyət göstərməsi, iş yerlərinin açılması, ümumi daxili məhsul istehsalında özəl bölmənin payının artaraq 88 faizi ötməsi bu siyasətin real bəhrələridir. Belə ki, müstəqillik illərində muxtar respublikada yüksək texnologiyalar əsasında maşınqayırma, metallurgiya, kimya, mədənçıxarma, mebel, yüngül, yeyinti və kənd təsərrüfatı təyinatlı 1051 istehsal və xidmət sahəsinin yaradılmasına nail olunub.

Ümumi iqtisadi inkişafa təsir göstərən amillərdən biri də yüksəkkeyfiyyətli, beynəlxalq standartlara cavab verən yerli istehsal məhsullarının dünya bazarlarına çıxarılması, ixrac potensialının gücləndirilməsidir. Bu gün muxtar respublikada fəaliyyət göstərən 40-a yaxın ixrac potensiallı müəssisədə ixracyönümlü məhsullar istehsal edilir. ABŞ, Çin, BƏƏ, Rusiya, Türkiyə, İran, Ukrayna, Qazaxıstan, Türkmənistan kimi ölkələrə elektrik enerjisi, mineral sular, daş məhsulları, tikinti materialları, tütün məmulatları, mebel məhsulları ixrac olunur. Muxtar respublikada sahibkarlıq fəaliyyəti və ticarət üçün yaradılmış münbit şəraitin nəticəsi olaraq xarici ticarət əlaqələrinin coğrafiyası daha da genişlənib və 2009-cu ildən başlayaraq xarici ticarətdə müsbət saldo yaranıb. Daha bir islahat tədbiri isə 2016-cı ildən etibarən investisiya fəaliyyətinin genişləndirilməsi və



təşviqi, sərmayə qoyuluşunun stimullaşdırılması məqsədilə sahibkarlara investisiya təşviqi sənədlərinin verilməsidir. Ümumilikdə, 2016-cı ildən etibarən 16 layihə üzrə 72 milyon 773 min 113 manat məbləğində investisiya təşviqi sənədi, 56 ixrac əməliyyatı üzrə isə 119 min 366 manat ixrac təşviqinin ödənilməsi həyata keçirilib.

Dövlətimizin başçısı mayın 10-da Azərbaycan Televiziyasına müsahibəsində bu barədə deyib: ***“Sənaye potensialı inkişaf edir, artır. Naxçıvan Muxtar Respublikası son 20 il ərzində iqtisadi artımın templərinə görə rekordsmen bölgədir. Ümumi daxili məhsul 10 dəfədən çox artıb. Kənd təsərrüfatı ilə bağlı görülmüş işlər nəticəsini verməkdədir. Bu gün Süni Mayalanma Mərkəzinin açılışında olduq. Bildirməliyəm ki, ölkəmizdə cəmi iki mərkəz var – biri Göygöldə, biri də Naxçıvanda. Əminəm ki, bu mərkəzin fəaliyyəti nəticəsində yaxın 4-5 ildən sonra Naxçıvanda südçülük sahəsində artıq bütün işlər tamamlanmış olacaq və Naxçıvan özünü necə ki, digər əsas ərzaq məhsulları ilə təmin edir, südlə də təmin edəcəkdir. Yəni bütün bunlar inkişafın təzahürüdür...***

***...Bir sözlə, muxtar respublika hərtərəfli inkişaf edir və bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir. Əminəm ki, Naxçıvan bu liderliyi bundan sonra da saxlayacaqdır”.***

### Zəngəzur dəhlizinin açılması Naxçıvanın inkişafına əsaslı töhfə verəcək

Böyük Qələbənin memarı, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasının blokadadan azad edilməsi istiqamətində çox önəmli və tarixi bir məsələnin həllini təmin edərək ötən il noyabrın 10-da imzalanmış birgə Bəyanata qədim diyarla bağlı xüsusi bir maddəni – 9-cu bəndi salmaqla önümüzdəki illərdə muxtar respublikanın beynəlxalq nəqliyyat dəhlizinə çevrilməsinə yol açdı. Zəngilandan Naxçıvana dəmir yolu xəttinin və avtomobil magistrallarının tikintisi muxtar respublikada transmilli nəqliyyat proqramlarının və layihələrinin reallaşdırılmasına şərait yaradacaqdır ki, bu da qədim diyarın geostrateji əhəmiyyətini daha da artırmaqla yanaşı, bir sıra mühüm məsələlərdə böyük nailiyyətlər qazanmağa şərait yaradacaqdır. Bütün bunlar Ali Baş Komandanımızın dəmir iradə nümayiş etdirməsinin nəticəsidir.

Bir sıra ekspertlərin də vurğuladığı kimi, Zəngəzur dəhlizinin açılması ilə Naxçıvan həm də bizim üçün Avropaya qapı, Türk dünyası üçün isə ümid bağına çevriləcək. Bütün maneə cəhdlərinə baxmayaraq, Zəngilan-Ordubad dəmir yolu xətti və bütövlükdə, Zəngəzur dəhlizinin açılması üçün real zəmin formalaşıb. Məhz bunu əsas gətirən siyasətçilərin fikrincə, ən yaxın vaxtlarda Zəngilanı Naxçıvanla birləşdirəcək 40 kilometrlik Zəngəzur dəhlizi mütləq açılacaq. Ölkə rəhbərinin dediyi kimi, Azərbaycan öz üzərinə düşən vəzifələri icra edəcək. Şərqi Zəngəzur bölgəsində yerləşən Zəngilanı bizim qədim torpağımız olan Qərbi Zəngəzurla, ondan sonra Ordubad vasitəsilə Naxçıvanla və Türkiyə ilə birləşdirmək növbəti tarixi nailiyyətimiz olacaq. Ermənistanın revanşist əhval-ruhiyyəli davranış tərzi isə yalnız Ermənistanın özünə ziyan verəcək. Ali Baş Komandanımızın da qeyd etdiyi kimi, ***“Azərbaycanın “dəmir yumruğ”u hər zaman onların başı üzərindədir və hər an düşməni əzməyə hazırdır”.***

**Rauf KƏNGƏRLİ**

## “Sabahın müəllimi” layihəsi çərçivəsində tələbələrlə görüş olub

*Mayın 19-da Naxçıvan Dövlət Texniki Kollecində “Sabahın müəllimi” layihəsi çərçivəsində pedaqoji profilli ixtisasların sonuncu kursunda təhsil alan tələbələrlə görüş olub.*

Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov müəllim kadrlarının hazırlanması üçün muxtar respublikada görülən işlərdən danışıb. Vurğulanıb ki, bu çoxsaylı tədbirlərin davamı olaraq artıq 3 ildir ki, nazirlik tərəfindən “Sabahın müəllimi” layihəsi çərçivəsində mühüm işlər görülür, tələbələrin ümumtəhsil məktəblərində yaxşı təcrübə keçmələri təmin edilir.

Rəhman Məmmədov bildirib ki, təkcə cari tədris ilində 7 məktəbdə 203 tələbə pedaqoji təcrübədə olub. Tələbələr təcrübə müddəti ərzində pedaqoji prosesi mənimsəmə və pedaqoji mühitə uyğunlaşma imkanı əldə ediblər. Nazirlik tərəfindən onların yüksək səviyyədə praktik iş qabiliyyətinə yiyələnmələri diqqətdə saxlanılıb, təcrübə dövründə tələbələrin təcrübə keçdikləri məktəblərdə açıq dərslər, onlara STEAM Tədris Mərkəzində seminarlar keçirilib, innovativ dərnəklərə ekskursiyalar təşkil edilib.

Nazir qeyd edib ki, 2018-ci ildən başlayaraq pedaqoji profilli ixtisasları bitirmiş gənclərin işə qəbulu müsabiqə yolu ilə aparılır. Bu günədək 6-sı müəllimlər, 3-ü isə vəzifəlilər üçün olmaqla, 9 müsabiqə keçirilib. Həmin müsabiqələrdə yüksək nəticə göstərən kadrlardan 466-sı müəllim, 140-ı isə müxtəlif vəzifələr olmaqla, ümumilikdə, 606 gənc kadr işlə təmin edilib. 2021-2022-ci tədris ili üçün isə 200-dən çoxu müəllim, 90-dan çoxu isə müxtəlif vəzifələr olmaqla, 300-ə yaxın vakant yer müsabiqəyə çıxarılacaqdır.

Sonra Təhsil nazirinin müavini Ovni Muradov, Naxçıvan Şəhər Təhsil Şöbəsinin metodisti Ceyran Məmmədova, Gərməçataq kənd tam orta məktəbinin müəllimi Günel Heydərova, Təhsil Nazirliyi aparatının şöbə müdiri Abdulla Əsgərov yeni təlim metodlarının ümumtəhsil məktəblərində tətbiqi haqqında məlumat veriblər.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Zakari Qros: “Fransa ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında əməkdaşlıq gələcəkdə daha da inkişaf etdiriləcək”



Fransa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zakari Qrosun başçılıq etdiyi nümayəndə heyəti mayın 18-də muxtar respublikamıza səfər edib. Qonaqlar əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstəsi qoyub, ulu öndərin xatirəsinə dərin ehtiramlarını bildiriblər. Sonra nümayəndə heyəti Heydər Əliyev Muzeyini ziyarət edib, ümummilli liderimizin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara baxıblar. Qonaqlar Naxçıvan Dövlət Universitetində də olub, ali təhsil ocağında keçirilən görüşdə fransız dilinin tədrisi və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Sonra ali təhsil ocağının Xarici dillər fakültəsində fəaliyyət göstərən Fransız dili Mərkəzində olan qonaqlara məlumat verilib ki, mərkəzdə tələbələrlə dərsdənkənar məşğələlər, diskussiyalar, tədbirlər keçirilir. Dil mərkəzi bədii əsərlər, professor-müəllim heyətinin elmi nailiyyətləri, dərs vəsaitləri ilə təchiz olunub.

Mayın 18-də Naxçıvan Dövlət Xalça Muzeyi, “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi ilə tanışlıq qədim diyarımızın tarixi, mədəniyyəti, milli-mənəvi dəyərləri, adət-ənənələri barədə nümayəndə heyətində dərin təəssürat yaradıb.

Mayın 19-da Fransa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zakari Qrosun başçılıq etdiyi nümayəndə heyəti Duzdağ Fizioterapiya Mərkəzi ilə də yaxından tanış olub. Daha sonra Şıxmahmud kənd tam orta məktəbinə gələrək pedaqoji kollektivlə görüşən qonaqlara məlumat verilib ki, məktəbdə hazırda 448 şagird təhsil alır, onların təlim-tərbiyəsi ilə 64 müəllim məşğul olur. Burada 42 ildir ki, əsas xarici dil kimi fransız dili 4 ixtisas müəllimi tərəfindən tədris olunur. 2019-cu il məzunlarından 1-i Naxçıvan Dövlət Universitetinin Fransız dili ixtisasına, ötən tədris ilinin məzunlardan 12-si respublikanın müxtəlif ali təhsil müəssisələrinə qəbul olub.

Fransalı nümayəndə heyəti I Kültəpə yaşayış yerinə də səfər edib, burada ötən illər ərzində aparılan arxeoloji tədqiqatlarla tanışlıq olub, ərazidən aşkarlanan qədim məişət əşyalarına baxılıb. Məlumat verilib ki, 2013-2016-cı illərdə AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası Fransa Milli Elmi Araşdırmalar Mərkəzinin arxeoloqları ilə birlikdə I Kültəpə yaşayış yerində tədqiqat işlərinə başlayıb. Ekspedisiyanın əsas məqsədi Neolit dövrünün sonuna aid olan I Kültəpə yaşayış yerində məskunlaşmanın tarixi və qədim Naxçıvan sakinlərinin ətraf aləmlə əlaqələrini öyrənmək, köçmə maldarlıqla bağlı abidələri tədqiq etməkdən ibarət olub.

Süni Mayalanma Mərkəzi ilə tanışlıq zamanı bildirilib ki, ölkə başçısının müvafiq sərəncamları əsasən yaradılan



mərkəz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin cari il mayın 10-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində istifadəyə verilib. Mərkəzin fəaliyyətə başlaması yeni iş yerlərinin yaradılmasına da geniş imkanlar açıb. Bu da Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın bütün sahələri kimi, kənd təsərrüfatının inkişafının da daim diqqət mərkəzində saxlanılmasının nəticəsidir.

Ağbulaq İstirahət Mərkəzi və Batabat iqlim kurort zonası ilə tanışlıq qonaqlarda muxtar respublikanın turizm potensialı barədə dərin təəssürat yaradıb.

Fransa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zakari Qros “Şərq qapısı” qəzetinə müsahibə verib: – İlk olaraq onu deyim ki, səfərimizin əsas məqsədi Fransa ilə muxtar respublika arasında əlaqələri daha da möhkəmləndirmək, bu gözəl diyarı kəşf etməkdir. Bildiyimiz kimi, hazırda naxçıvanlı tələbələr Fransanın Anje şəhərində təhsil alırlar və istərdik ki, bu tələbələrin sayı daha da çoxalsın. Digər bir istəyimiz isə ondan ibarətdir ki, Naxçıvanda təhsil alan tələbələr təqaüd proqramından bəhrələnsin. Həmçinin Bakıda fəaliyyət göstərən Fransa-Azərbaycan Universitetində də naxçıvanlı tələbələri görmək arzusundayıq.




Naxçıvanla tanışlığım barədə isə onu deyə bilərəm ki, bura çox gözəl, sakit diyardır, abadlıq-quruculuq işləri yüksək səviyyədədir. Səfər çərçivəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ilə görüşdən çox məmnun qaldım, şəhərdə olan bütün fəaliyyət növləri ilə yaxından tanışlıq zamanı aydın oldu ki, hər bir sahənin inkişafı üçün hərtərəfli şərait yaradılıb. Naxçıvan Dövlət Universiteti, ali təhsil ocağının gözəl, dinamik şəhərciyi marağımı çəkdi. Şəhərdə müasirliklə yanaşı, tarixi zənginlik də göz qabağındadır. Burada olduğumuz müddətdə Cənubi Qafqazın ən qədim yaşayış məskəni sayılan Kültəpəyə də getdik, Azərbaycan və Fransa arxeoloqlarının birgə həyata keçirdikləri arxeoloji qazıntılarla yaxından maraqlandıq. Sevindirici haldır ki, bu istiqamətdə birgə əməkdaşlıq 15 ildir, davam edir. Fransa şirkətinin avadanlıqları ilə təchiz edilən Süni Mayalanma Mərkəzində, eləcə də Ağbulaq İstirahət Mərkəzində də olduq. Düşünürəm ki, Ağbulaqdakı xizək mərkəzinin köməkliyi ilə qış idman növü üzrə turizm sahəsində əlaqələrimizi inkişaf etdirə bilərik. Gördüyünüz kimi, həm iqtisadiyyat, həm təhsil, həm də kənd təsərrüfatı sahələrində burada yaşayan insanlar üçün gözəl perspektivlər mövcuddur. Çox şadam ki, Fransa konkret olaraq Naxçıvanda fəaliyyət üçün maraqlıdır və inanırıq ki, gələcəkdə birgə əməkdaşlıq daha da inkişaf etdiriləcək.

✍ **Nail ƏSGƏROV**

✍ **Məcid RƏŞADƏTOĞLU**

# “Aşıq Ələsgər – 200” mövzusunda elmi konfrans

***AMEA Naxçıvan Bölməsinin təşkilatçılığı, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyi və muxtar respublikadakı ali təhsil müəssisələrinin iştirakı ilə “Aşıq Ələsgər – 200” mövzusunda elmi konfrans olub.***



Konfransı giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bildirib ki, Azərbaycan aşıq ədəbiyyatının görkəmli nümayəndəsi Aşıq Ələsgərin əsərləri vətənpərvərlik, insansevərlik, el-obaya bağlılıq kimi yüksək insani keyfiyyətləri təcəssüm etdirən mükəmməl xəzinədir. Unikal aşıq sənətinin kamil bilicisi olmuş Dədə Ələsgər yaradıcılığı ilə bağlı çoxsaylı tədqiqatlar aparılmış və müxtəlif səpkili araşdırmalar bu gün də davam etməkdədir.

Xalq danışıq dilinə doğmalığı, səlisliyi ilə seçilən Aşıq Ələsgər irsinin dövlətimiz tərəfindən yüksək qiymətləndirildiyindən söz açan akademik vurğulayıb ki, ustad Ələsgərin 150, 175, 190 illik yubileylərinin böyük təntənə ilə qeyd edilməsi, əsərlərinin böyük tirajla nəşr olunması və təbliği bütövlükdə ədəbiyyatımıza, mədəni irsimizə göstərilən qayğının təzahürüdür. Azərbaycan Respublikası Prezidentinin “Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında” 2021-ci il 18 fevral tarixli və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Aşıq Ələsgərin 200 illik yubileyinə həsr olunmuş Tədbirlər Planının təsdiq edilməsi haqqında” 2021-ci il 22 fevral tarixli sərəncamları həmin diqqət və qayğının davamıdır. Konfransın məhz həmin tədbirlər planına əsasən keçirildiyini diqqətə çatdıran bölmə rəhbəri qeyd edib ki, AMEA Naxçıvan Bölməsinin “Elmi əsərlər” jurnalının nəşrə hazırlanan xüsusi nömrəsi də Aşıq Ələsgər irsinin tədqiqinə həsr olunub. Akademik çıxışının sonunda ədəbiyyatımıza və ədiblərimizə göstərilən yüksək qayğıya görə ölkə rəhbərliyinə minnətdarlığını bildirib.

Konfransda Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Əməkdar mədəniyyət işçisi Asim Yadigar “Aşıq Ələsgər yaradıcılığının sənətkarlıq xüsusiyyətləri” mövzusunda məruzə edərək onun zəngin bədii irsi, yaradıcılığının dil və üslub xüsusiyyətləri haqqında ətraflı məlumat verib.

Naxçıvan Müəllimlər İnstitutunun professoru Yusif Səfərov, Naxçıvan Dövlət Universitetinin dosenti İman Cəfərov, AMEA Naxçıvan Bölməsinin şöbə müdiri, dosent Nuray Əliyeva və “Naxçıvan” Universitetinin kafedra müdiri, dosent Nüşabə Məmmədova müxtəlif mövzularda məruzələr ediblər. Məruzəçilər Aşıq Ələsgərin Naxçıvana səfəri, naxçıvanlılarla olan dostluq əlaqələri, Naxçıvan aşıq məktəbi nümayəndələri ilə münasibətləri haqqında maraqlı elmi-ədəbi faktları diqqətə çatdırıb, konfrans iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

# Günnüt əməliyyatının üçüncü ildönümü qeyd olunub

Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində Günnüt əməliyyatının üçüncü ildönümü münasibətilə tədbir keçirilib. Tədbirdə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi yad edilib.

Əlahiddə Ümumqoşun Ordunun zabiti Fariz Sərxanov və Naxçıvan Qarnizonu tam orta məktəbinin direktoru Natiq Əhmədov çıxışlarında ordumuzun qüdrətindən və Günnüt əməliyyatının əhəmiyyətindən danışıblar. Bildirilib ki, 2016-cı il Aprel döyüşləri Azərbaycan Ordusunun hərbi qüdrətini göstərdisə, 2018-ci il Günnüt əməliyyatı zamanı qazanılan strateji yüksəklik və ərazilər Azərbaycan Ordusunun nə qədər böyük manevr qabiliyyətinə malik olduğunu təsdiq etdi. Beləliklə, döyüş meydanında təcrübə qazanan ordumuz Vətən müharibəsində düşməni məğlub edərək torpaqlarımızı işğaldan tam azad etdi.



Uğurlu Günnüt əməliyyatının igid hərbi qulluqçularının da iştirak etdiyi tədbirdə ordumuzun qüdrətindən bəhs edən videoçarxlar nümayiş olunub, əsgər və şagirdlər vətənpərvərlik ruhunda şeirləri bədii qiraət ediblər.

**Kənan CƏLİLOV**

# “Naxçıvan Muxtar Respublikasında qadınların iqtisadi səlahiyyətlərinin artırılması” layihəsinin icrasına başlanılıb

***Dünən Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı Səfirliyinin maliyyələşdirdiyi, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Azərbaycan Mikromaliyyə Assosiasiyası tərəfindən icra olunan “İcma Quruculuğu Təşəbbüsləri Proqramı” çərçivəsində “Naxçıvan Muxtar Respublikasında qadınların iqtisadi səlahiyyətlərinin artırılması” adlı layihəsinin icrası ilə əlaqədar tədbir keçirilib.***



Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova bildirib ki, muxtar respublikada dövlət qadın siyasətinin uğurla həyata keçirilməsi, göstərilən dövlət qayğısı nəticəsində Naxçıvan qadınları bütün sahələrdə, xüsusən də özəl sektorda geniş təmsil olunurlar. Hazırda muxtar respublikada fəal əməklə məşğul olan və iqtisadiyyatın müxtəlif sahələrində işləyən əhalinin 33 faizini qadınlar təşkil edir. Muxtar respublikada aparılan sosialyönümlü tədbirlərin davamı olaraq Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən qadınların rifah halının yaxşılaşdırılması və məşğulluğunun artırılması məqsədilə 2021-ci ilin ötən dövrü ərzində 55 aztəminatlı və məhdud fiziki imkanlı qadınlar üçün toxuculuq peşəsinin öyrədilməsi ilə bağlı təlim keçirilib, məhdud fiziki imkanlıların və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satışlar təşkil olunub. Həmçinin muxtar respublikada qadınların sahibkarlıq fəaliyyəti ilə məşğul olması, kredit resurslarından, bazar və müxtəlif imkanlardan istifadəsi üçün hər cür şərait yaradılır. Hazırda muxtar respublikada, ümumilikdə, 7390 qadın sahibkarlıq fəaliyyəti ilə məşğuldur.

Qeyd olunub ki, Avropa İttifaqının maliyyələşdirdiyi, BMT-nin İnkişaf Proqramının qismən maliyyə dəstəyi daxil olmaqla, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Azərbaycan Mikromaliyyə Assosiasiyası tərəfindən icra olunan “qadınların dayanıqlı inkişaf üçün səlahiyyətləndirilməsi” layihəsi çərçivəsində öz biznes- planı ilə fərqlənən 102 qadına 69 min 250 manat məbləğində sərmayə kapitalı verilib ki, bu da muxtar respublikada ailə təsərrüfatlarının inkişafına şərait yaradıb. Hazırda muxtar respublikamızda 1040 ailə təsərrüfatı fəaliyyət göstərir.

Bildirilib ki, görülən işlərin davamı olaraq cari ildə Azərbaycan Mikromaliyyə Assosiasiyası və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən “Naxçıvan Muxtar Respublikasında qadınların iqtisadi səlahiyyətlərinin artırılması” adlı layihənin icrasına başlanılmışdır. Komitə sədri layihə haqqında ətraflı məlumat verərək bildirib ki, layihə çərçivəsində “Gələcəyini planlaşdır!” və “Sahibkar ol!” təlimlərinin keçirilməsi nəzərdə tutulur. Təlimlərdə sağlamlıq imkanları məhdud və aztəminatlı ailələrdən olan qadınlar da daxil olmaqla, Naxçıvan Muxtar Respublikasının rayonlarından və Naxçıvan şəhərindən olan 27 qadının iştirakı nəzərdə tutulur. Təlimlərin sonunda uğurlu biznes-planı təqdim edən layihə iştirakçılarına sertifikatlar təqdim olunacaq və 20 qadına sərmayə kapitalı veriləcəkdir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Sədri muxtar respublika qadınlarına göstərdiyi diqqət, qayğı və dəstəyə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlığını bildirib.

Azərbaycan Mikromaliyyə Assosiasiyasının layihə rəhbəri Sevinc Rüstəmova layihə çərçivəsində keçiriləcək təlimlərin qadınların maliyyə savadlılığı ilə bağlı bilik və bacarıqlarının artmasına, onların gələcək bizneslərinin inkişafına əhəmiyyətli təsir göstərəcəyinə əminliyini bildirib.

Layihə iştirakçıları Rəfayə İbrahimova, Reyhan Salmanova onlara göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıq ediblər.

Sonra maliyyə savadlılığı üzrə “Gələcəyini planlaşdır!” təliminə başlanılıb. Təlim qarşılıqlı diskussiya şəklində keçirilib, qadınlar tərəfindən maraqla qarşılanıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

***Arıçılıq son illərdə muxtar respublikada böyük maraq göstərilən sahələrdən birinə çevrilib. Bunun da özünəməxsus səbəbləri var. Bir tərəfdən dövlətin bu sahənin inkişafına göstərdiyi hərtərəfli qayğı, digər tərəfdən arıçılığın gəlirli sahə olması bu işə marağı daha da artırıb. Unutmamalıyıq ki, arıçılıq həm də Naxçıvanda qədim ənənələrə malik məşğuliyyət sahələrindəndir. Bu isə o deməkdir ki, qədim diyarımızın coğrafi ərazisi arıçılıq üçün əlverişlidir, əhalinin bu sahə üzrə ənənəvi təcrübəsi mövcuddur.***

*Ailə təsərrüfatlarımız*

# Arıçılıq müqəddəs peşədir



Məhz buna görə də bu sahənin inkişaf etdirilməsi həm də dövlətin marağındadır. Çünki arıçılıq həm əhalinin məşğulluğuna, həm də yerli istehsalın inkişafına öz töhfəsini verir. Təsadüfi deyil ki, dövlət tərəfindən həyata keçirilən aqrar islahatlarda arıçılığın inkişafına böyük önəm verilir. Xüsusilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nda arıçılıq təsərrüfatlarında elmi nailiyyətlərin, qabaqcıl təcrübənin tətbiqi üçün sahibkarlar arasında maarifləndirmə işlərinin aparılması, kənd əhalisinin məşğulluğunun artırılması, arıçılıq məhsullarının emalı və qablaşdırılması müəssisələrinin yaradılması kimi bir çox vəzifələrin nəzərdə tutulması bunu bir daha təsdiq edir. Bundan əlavə, xatırlatmaq lazımdır ki, muxtar respublikada istehsal olunan balın satışı üçün şəraitin yaradılması və ənənəvi olaraq "Arıçılıq məhsulları – bal festivalı"nın keçirilməsi arı ailələrinin çoxalmasına, bal istehsalının artmasına və bu sahədə sahibkarlığın inkişafına stimul olub. Buna görə də yuxarıda da qeyd etdiyimiz kimi, arıçılığa maraq göstərənlərin sayı getdikcə artır. Bu yazıda oxucularımıza təqdim edəcəyimiz arıçı isə uzun illərdir, bu işlə məşğuldur və onunla söhbətimiz də elə bir yaz gününə təsadüf etdi.

Yusif Səmədov Kəngərli rayonunun Çalxanqala kəndində yaşayır. Ali təhsillidir, uzun illər dövlət qurumlarında çalışıb. 25 ildən çoxdur, yaşadığı Çalxanqala kəndində arıçılıqla məşğul olur. Əvvəllər də Səmədovlar ailəsi arı ailələri saxlayıb, lakin ötən əsrin sonlarında yaşadıqları Qərbi Azərbaycan bölgəsindən Naxçıvana köçərkən bu iş də yarımçıq qalıb. Ancaq bir neçə il sonra yenidən təsərrüfatını qurmağı bacarıb. İşlər necə gedir? – sualımıza həmsöhbətim: Yaxşı, – deyə cavab verir. Bildirir ki, hazırda təsərrüfatında 100-dən çox arı ailəsi saxlayır. Yaxşı da məhsul götürür.

Yusif Səmədovla arıçılıqda mövcud vəziyyətdən danışırıq. Deyir ki, bu gün arıçılığın inkişafı üçün dövlət tərəfindən mühüm işlər görülür. Arıçıların dövlət maliyyə resurslarına çıxış imkanlarının genişlənməsi, arı xəstəliklərinin qarşısının alınması məqsədilə təsərrüfatçılara dərman preparatlarının paylanılması, arıçılar üçün yaylaq yerlərinin ayrılması, gənc sahibkarlara müxtəlif metodik dəstəyin göstərilməsi, arıçılıq məhsullarının satışı üçün festivalların keçirilməsi, ticarət şəbəkələrində müvafiq bölmələrin yaradılması hər birimizi sevindirir. Müsahibimiz bildirir ki, arıçılıqla uzun müddət məşğul olduğuna və məhsulunu tanıtdığına görə paytaxt Bakı şəhərində daimi müştəriləri var. Ötən il 1 tondan çox bal istehsal edən ailə, elə məhsulun çox hissəsini də muxtar respublikadan kənarda yaşayan alıcılarına satıb. Bunu da öyrəndik ki, ailə təsərrüfatı sahibi mövsümə uyğun olaraq arı ailələrini Şahbuz rayonunun Gömür kəndi istiqamətinə aparır və ilin bir neçə ayını burada keçirməli olur. Bu işdə ona həyat yoldaşı və uşaqları kömək edir.

Yusif Səmədovla arıçıların çöl həyatından da danışırıq. Deyir ki, Naxçıvanın gözəl təbiəti, iqlimi imkan verir ki, aranda gül-çiçək solanda dağlıq ərazilərdə yeniləri açsın. Baxmayaraq ki, Naxçıvanda aranla dağlıq ərazilər arasındakı məsafə çox azdır – cəmi 50-60 kilometr. Ancaq Ulu Yaradanın Naxçıvana bəxş etdiyi bu təbii gözəllik möcüzəvi canlılar kimi arıların da davamlı olaraq qidalanmasında böyük rol oynayır. Təsərrüfat sahibi ilə söhbət edərkən, arıçılardan son illərdə eşitdiyim bir şikayət də yadıma düşdü: ayıların bal ovuna çıxmaları. Bu haqda soruşduqda müsahibim dedi ki, indi buna da əlac tapıblar. Belə ki, qazla çalışan və zaman uyğunlaşdırılmasına görə bir neçə dəqiqədən bir "atəş açan" səsli qurğu arıçıların təsərrüfatlarını vəhşi heyvanlardan qorumaq üçün hazırlanmış ən yaxşı "silahdır".

Arıçı müsahibimlə bu sahə haqqında xeyli söhbət edirik. Arıçılığın ildən-ilə inkişafının daha çox məhsul bolluğuna səbəb olacağına, buna görə də bal ixracı üçün böyük potensial yaranacağına inanır. Söhbət əsnasında onu da qeyd edir ki, arıçılıq müqəddəs peşədir, ancaq, təəssüf ki, bu gün bəziləri buna təqaüddən sonrakı məşğulluq sahəsi kimi baxır. Amma, əslində, bu işə erkən yaşlardan başlamaq lazımdır. O zaman həyatın boyunca, həm də yaxşı təcrübə qazanmış olarsan. Əgər təsərrüfata sevgi ilə bağlansan, o təsərrüfat da səni dolandırar. Bu fikirlə biz də razıyıq. O ki qaldı arıçılıq sahəsinə, gərək buna da həvəslə, qayğı ilə yanaşasan. Nəzərə alaq ki, tarixin heç bir dövründə muxtar respublikada arıçılar bu cür qayğı ilə əhatə olunmayıblar. Buna görə də bu işlə məşğul olanlar mövcud şəraitdən layiqincə yararlanmalı, onlara göstərilən etimadı doğrultmaqla yerli məhsul istehsalına öz töhfələrini verməlidirlər.

✍ **Səbuhi HƏSƏNOV**

# Kənd təsərrüfatının inkişafı istiqamətində işlər davam etdirilib

*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi aprel ayında da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamı ilə təsdiq edilmiş Dövlət proqramlarında və verilmiş tapşırıqlarda qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində maarifləndirmə işlərini davam etdirib.*



Qəbul edilmiş Dövlət proqramlarının müvafiq bəndlərinin icrası ilə bağlı ailə təsərrüfatçıları və fermerlərin iştirakı ilə tarla seminar-müşavirələri keçirilib. Müşavirələrdə əkin atlaslarından istifadə etməklə yaz əkinlərində növbəli əkin sisteminin tətbiqi, qarğıdalı əkininin optimal müddətə aparılması, qızılgül bitkisinin əkilib-becərilmə texnologiyası, meyvə və üzüm bağlarında aparılacaq aqrotexniki tədbirlərlə bağlı maarifləndirici məsləhətlər verilib. Nazirliyin mütəxəssisləri tərəfindən muxtar respublikanın rayonlarında əkin sahələrində müşahidələr aparılıb, karantin mənşəli zərərvericilərə və alaq otlarına qarşı kimyəvi mübarizənin aparılması məqsədilə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin Respublika Bitki Mühafizə Mərkəzindən alınıb gətirilən pestisid və herbisidlər torpaq mülkiyyətçilərinə paylanmaq üçün İcra hakimiyyətlərinə verilib.

Ay ərzində nazirliyə meyvə bağları və üzümlüklərdə yaz dövrü ərzində həyata keçiriləcək vacib tədbirlərlə bağlı 32, taxıllara yemləmə gübrələrinin verilməsi ilə bağlı 10, dənli-paxlalı bitkilərin əkini ilə bağlı 9 vətəndaş müraciət edib, nazirlik əməkdaşları tərəfindən onlara lazımi tövsiyələr verilib, əməli köməkliklər göstərilib.

Cari ildə yaz əkinlərinin optimal müddətdə başa çatdırılması, əkin zamanı baş verə biləcək nasazlıqların qısa zamanda aradan qaldırılması üçün rayonlarda yaz əkinlərinə cəlb ediləcək texnikaların texniki vəziyyəti daim nəzarətdə saxlanılaraq texnika sahibləri ilə fərdi söhbətlər aparılıb.

Aprel ayında Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyinin Aqrokimya, torpaqşünaslıq və torpaqların kütləvi analizləri şöbəsi tərəfindən mülkiyyətçilərin təqdim etdiyi 2 torpaq nümunəsi analiz olunub və tərkibindəki qida maddələrinin miqdarı barədə aidiyyatına məlumat göndərilib. Birliyin əkin sahəsində Naxçıvan Dövlət Universitetinin tələbələri, torpaq mülkiyyətçiləri və sahibkarların iştirakı ilə "Əkin sahələrində alaq otlarına qarşı kimyəvi mübarizə tədbirlərinin aparılması" mövzusunda tarla-seminar müşavirə keçirilib, onlara kimyəvi mübarizə tədbirlərinin aparılmasında istifadə olunan herbisidlər haqqında məlumat verilib. Birliyin ərazisində becərilən çəyirdəkli və qərzəkli tinglik sahəsindən Şərur Rayon İcra Hakimiyyətinin yaşıllıq zolaqları üçün 2000, Naxçıvan Şəhər Yaşıllaşdırma Xidmətinə 1500, Meliorasiya və Su Təsərrüfatı ASC-yə 700, Kanalizasiya və İçməli Su İdarəsinə 200 çəyirdəkli, qərzəkli və tumlu meyvə tingləri verilib. Dövlət proqramlarında verilmiş tapşırıqların icrası ilə bağlı 5 min üzüm çiliyi tədarük olunaraq əkini həyata keçirilib.

Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsinə toxumçuluq təsərrüfatı və fermerlər tərəfindən laboratoriyaya gətirilən toxumlar analizdən keçirilib, nəticəsi analiz aktı formasında onlara təqdim olunub. İdarəyə müxtəlif əkin sahələrində xəstəlik və zərərvericilərin aşkarlanması məqsədilə müraciət edən 52 ailə təsərrüfatı rəhbəri və fermerlərin əkin sahələrinə mütəxəssislər tərəfindən baxış keçirilib, onlara tələb olunan mübarizə tədbirləri haqqında məsləhət və tövsiyələr verilib.

Heyvandarlıq təsərrüfatlarında faraş doğulan balalara zoobaytar qaydalarına uyğun qulluq edilməsi, heyvanlar arasında baytarlıq tədbirlərinin vaxtında aparılması və otlaqlardan səmərəli istifadə olunmasının əhəmiyyəti ilə bağlı sahibkarlarla maarifləndirici müşavirələr keçirilib. Heyvanların düzgün yemləndirilməsi, mal-qaranın sığortalanması və aqrar sığortanın əhəmiyyəti, erkən yazda arı ailələrinə qulluq və arıçılıq məhsullarının artırılmasında yeni texnologiyaların tətbiqinin əhəmiyyəti ilə bağlı maarifləndirici söhbətlər aparılıb və bukletlər paylanılıb.

Nazirlik əməkdaşları tərəfindən Naxçıvan Muxtar Respublikası Süni Mayalanma Mərkəzinə dəvət olunmuş 19 süni mayalama operatoruna, süni mayalanmanın əsaslarına dair praktik dərs keçilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları ilə birgə özünüməşğulluq proqramına uyğun olaraq dəvət edilmiş ailə təsərrüfatı sahibkarları ilə maarifləndirici görüşdə mal-qaranın, quşların, arı ailələrinin saxlanması və yetişdirilməsi ilə bağlı mühazirə oxunub.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

# Naxçıvanın dillər əzbəri olan göycəsi



*Naxçıvanın havası, suyu, meyvəsi can dərmanıdır. Bu torpağın bütün dad-tamlı meyvələri kimi göycənin də adı dillər əzbəridir. Göycə qədim diyarımızın ən sevilən, nübar meyvələrindən biridir. Qədim zamanlardan bəri göycə yalnız bu regionda becərilib. Naxçıvan göycəsinin tarixi VII əsrə gedib çıxır. "Göycə" sözü göyümtül-yaşıl mənasında olmaqla bərabər, "yeni", "təzə" mənasını da ifadə edir.*

Keçmiş zamanlarda olduğu kimi, hazırda da Naxçıvanda göycə meyvəsinin yetişdirilməsinə böyük önəm verilir, bu məhsulun istehsalının artırılması ilə yanaşı, təbliği və tanıdılması da diqqət mərkəzində saxlanılır. Maraqlıdır, bəs Naxçıvan göycəsi hansı faydalı xüsusiyyətlərinə görə seçilir, bu meyvənin yetişdirilməsində daha çox nələrə diqqət olunmalıdır? Elə biz də bu suallara cavab tapmaq üçün yolumuzu Şərur rayonundan saldıq.

Müsahibim 2019-cu ildə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən "Ən yaxşı göycə" müsaqibəsində iştirak edərək birinci yerə layiq görülən Nazim Abbasovdur. Şərur rayonunun Ələkli kəndində yaşayan Nazim əmi 6 ildən çoxdur ki, bağbanlıq edir. Onun sözlərinə görə, göycə müxtəlif alça sortlarının bağbanlarımız tərəfindən calaq edilməsi yolu ilə əmələ gəlib. Belə ki, əvvəlcə alça ağacı əkilir, sonra göycənin budağından ona calaq vururlar. İkinci, yaxud da üçüncü il artıq göycə ağacı bar verir. Calağın da öz vaxtı var. Dədə-babalarımız deyərdi ki, calaq arpa biçini zamanı edilməlidir. Göycənin calağı, əsasən,



alça və almaxara ağaclarına vurulur. Təcrübələr əsasında demək olar ki, bu ağaclar vurulan calaqdan sonra yaxşı bar verir. Həm də həmin ağacların kökaltı hissələri yaxşı inkişaf etdiyindən gec quruyur, xəstəliklərə davamlı olur.

Bağban deyir ki, ağacları yağışlı havalarda zərərvericilər daha tez məhv edə bilər. Buna görə də yazda və çiçəkləmədən sonrakı dövrdə ağacları dərmanlayırıq. Məhsul verməyə bir ay qalmış dərmanlama dayandırılır ki, kimyəvi tərkib ağacın meyvəsinə təsir göstərməsin. Ağacları çiçəkləmə vaxtında dərmanlamaq olmaz. Bütün ağaclar kimi, göycənin də mineral maddələrə, üzvi gübrələrə ehtiyacı var. Lakin ağaca gübrə verilən zaman diqqətli olmaq lazımdır. Gübrə mütləq çiçəklədən əvvəl verilməlidir. Erkən yazda göycə ağacı budanmalıdır. Onun üst təpə tumurcuqları təmizlənməsə, məhsulu az olar.

Bəziləri göycə ilə alçanı səhv salır. Nazim əmi bu məsələyə toxunaraq qeyd edir ki, göycə alçadan tez yetişir. Yəni göycə satışa çıxarıldığı vaxt alçalar çox balaca və acı olur. Alçanı, adətən, göy ikən deyil, yetişəndən sonra yığıb istifadə edirlər. Göycə ilə bir fərqi də elə budur. Göycə, yəni göy ikən "gəl qopar məni", – deyir. Qısaca, görünüş etibarilə göycə ilə alça səhv salınsa da, faktiki olaraq bunlar ayrı-ayrı meyvələrdir. Göycələrin turş olanı da var, şirini də. Əgər göycənin calağı şirin alçaya vurularsa, göycə şirin, yox, əgər xalq dili ilə desək, cır alçaya vurularsa, məhsul turş olar. Ağaca yaxşı qulluq olunarsa, vaxtlı-vaxtında mineral maddələrlə təmin edilərsə, bu onun məhsuldarlığını və keyfiyyətini artıracaq. Ağaca verilən suyun da onun məhsuluna bilavasitə təsiri var. Belə ki, şirin suyla suvarılan ağacın meyvəsilə şor su ilə suvarılan ağacın meyvəsi arasında, əlbəttə ki, fərq olacaq.

Göycənin insan orqanizmi üçün çox faydalı olduğunu söyləyən Nazim əmi deyir ki, C vitamini ilə zəngin olan bu meyvə qanazlığı olanlar üçün faydalıdır, susuzluğu yatırır, iştahaaçıcıdır, eləcə də diş ətlərinin möhkəmlənməsinə kömək edir. Ona görə də bu meyvədən, demək olar ki, hamı istifadə edir.

Müsahibimlə söhbət zamanı bu nəticəyə gəldik ki, Naxçıvan göycəsinin tanıdılması, brend məhsula çevrilməsi sahəsində son illərdə diyarımızda keçirilən göycə festivallarının rolu böyükdür. Festivallarda muxtar respublikamızın müxtəlif bölgələrindən torpaq mülkiyyətçiləri öz məhsulları ilə iştirak edir, onları tanıtmaqla bərabər, yaxşı qazanca da sahib olurlar. Naxçıvana gələn əcnəbilərin bu festivallarda satılan belə məhsullardan alaraq öz qohum-əqrəbalarına da pay aparması onu göstərir ki, regionumuza xas olan göycə hər kəs tərəfindən bəyənilir. Muxtar respublikamızda göycə bağları sahələrinin ildən-ilə genişlənməsi isə bu meyvəyə olan tələbatın artdığını göstərir. İnanırıq ki, Naxçıvan göycəsi yaxın gələcəkdə xarici bazarlarda da özünə böyük alıcı kütləsi qazanacaqdır.

✍ **Aytac CƏFƏRLİ**

## Gənclərin hərtərəfli inkişafı diqqətdə saxlanılır



*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən aprel ayında da gənclərlə iş diqqətdə saxlanılıb, bir sıra tədbirlər həyata keçirilib.*

Ay ərzində "Nizami Gəncəvi ili" ilə əlaqədar ali və orta ixtisas təhsili müəssisələrinin teatr studiyaları arasında keçirilən "Nizami dünyası" adlı teatr müsabiqəsi çərçivəsində "Naxçıvan" Universiteti, Naxçıvan Dövlət Texniki Kolleci və Naxçıvan Musiqi Kollecinin teatr studiyaları tərəfindən hazırlanmış tamaşalar nümayiş olunub, 2020-ci ilin fevral ayından başlanan "Yaradıcı Gənclər Akademiyası" layihəsi çərçivəsində təşkil olunan kursları uğurla bitirən 10 gəncə sertifikat təqdim edilib.

Kəngərli rayonunda 25 gəncin iştirakı ilə "İş və şəxsi həyat balansı" mövzusunda motivasiya yönümlü təlim təşkil olunub. Təlim "Həyat balansı nədir?", "İş və şəxsi həyat balansı necə təmin olunmalıdır?", "Zamanın düzgün idarə olunmamasından yaranan streslə mübarizə metodları", "Zaman oğruları ilə mübarizə üsulları" və "Stresin idarə olunması" mövzularını əhatə edib.

Bakı şəhərində "Nizami Gəncəvi ili"nə həsr edilən gənclər arasında "Xəmsə" milli intellektual oyunu üzrə XIII Azərbaycan çempionatında Naxçıvanın "Diplomat" komandasının iştirakı təmin edilib, təmsilçimiz uğurlu nəticə göstərərək ikinci pilləyə layiq görülüb. Komanda üzvləri ilə görüş keçirilib, onlara nazirlik tərəfindən təşəkkürnamə və hədiyyələr təqdim olunub. Həmçinin ay ərzində müxtəlif formatda bilik yarışları – gənclər arasında "Axtar tap" və "Nə? Harada? Nə zaman?" intellektual oyunları keçirilib. "Nə? Harada? Nə zaman?" yarışmasının sualları "Tarixə ekskursiya" layihəsi çərçivəsində gün ərzində ziyarət edilən tarixi-mədəni məkanlarla bağlı olub. Layihəyə əsasən ölkənin müxtəlif bölgələrindən olan 25 gəncin iştirakı ilə Heydər Əliyev Muzeyi, Naxçıvan Dövlət Xalça, Cəmşid Naxçıvanski, Milli Dəyərlər və Ədəbiyyat muzeylərinə ekskursiya təşkil edilib. Bundan əlavə, "Naxçıvanı tanıyaq!" devizi altında gənclərin Babək rayonunda yerləşən tarixi abidə və muzeylərə ekskursiyası reallaşıb.

22 aprel – Beynəlxalq Yer Kürəsi Günü ilə əlaqədar Heydər Əliyev Su Anbarı və "Könüllülər bağı" ətrafında təmizlik aksiyası keçirilib. "Gənclər ətraf mühitin çirklənməsinə yox deyir!" devizi ilə reallaşan aksiyada 70 gənc iştirak edib. Gənclərin asudə vaxtlarının səmərəli təşkili, istedadlı gənclərin üzə çıxarılması, onların bacarıqlarının təkmilləşdirilməsi üçün lazımi şəraitin yaradılması, gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunması məqsədilə Ağbulaq İstirahət Mərkəzində "Gənc rəssamların incəsənət döyüşü" adlı rəsm müsabiqəsi, Naxçıvan Təlim Mərkəzində gənclər arasında "Hədəf" atış təlimi təşkil olunub. Azərbaycanın tarixində müstəsna xidmətləri olmuş şəxslərin, ölkəmizin ərazi bütövlüyü uğrunda şücaət göstərmiş döyüşçülərin, o cümlədən Milli qəhrəmanların gənclər arasında tanıdılması məqsədilə könüllü gənclər tərəfindən "Qəhrəmanlar unudulmur" adlı videoçarxlar hazırlanıb və sosial şəbəkələrdə yerləşdirilib.

Ay ərzində bədən tərbiyəsi və idman sahəsində kütləviliyin artırılması, muxtar respublikanın tarixi və təbiət abidələrinin tanıdılması, təbliği, o cümlədən fiziki imkanları məhdud yeniyetmə və gənclərin reabilitasiyasının təmin olunması istiqamətində gənclər arasında speleoturizm (mağara turizmi), fiziki imkanları məhdud gənclər arasında 100 metr məsafəyə qaçış üzrə Naxçıvan Muxtar Respublika birincilikləri keçirilib. Ötən ilin sentyabr ayında start verilən və fasilələrlə 3 modul şəklində icra olunan "C" kateqoriyalı məşqçi kursunun lisenziyaları futbol məşqçilərinə təqdim olunub. "Elit məşq" layihəsi çərçivəsində uşaq futbolu məşqçiləri üçün Bakıda təşkil olunan təlim-məşq toplanışında bir gənc məşqçinin iştirakı təmin edilib. Vətən müharibəsi şəhidləri leytenant Ənvər Əliyev və leytenant Yaqub Nəcəfovun xatirəsinə həsr olunan onlayn şahmat turnirləri keçirilib. Yarışlarda Naxçıvan şahmatçıları və ölkənin digər bölgələrindən olan zəka sahibləri ilə yanaşı, Türkiyə, Gürcüstan və ABŞ-ı təmsil edən idmançılar da iştirak ediblər. Bundan əlavə, muxtar respublikanın şəhər və rayonlarında idmanın şahmat, futbol, voleybol, basketbol, şose velosipedi, qaçış, nizəatma, yadro itələmə və stolüstü tennis növləri üzrə birinciliklər təşkil olunub, 15 yarışda qız idmançıların iştirakı təmin olunub.

Milli-mənəvi dəyərlərin təbliğ olunması, ictimai-siyasi və yaradıcı şəxsiyyətlərin daha yaxından tanıdılması məqsədilə muxtar respublikada fəaliyyət göstərən idman federasiyaları üçün mütəmadi təşkil olunan ənənəvi ekskursiyalar aprel ayında da davam etdirilib, qrafikə uyğun olaraq budəfəki gəzintidə Şahmat, Güləş, Boks və Karate federasiyalarının təmsilçiləri müvafiq olaraq Xatirə Muzeyində, Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksində, Cəlil Məmmədquluzadənin ev-muzeyində və Naxçıvan Dövlət Rəsm Qalereyasında olublar.

## Peyntbol üzrə muxtar respublika birinciliyi keçirilib

Ali və orta ixtisas təhsili müəssisələrinin oğlanlardan ibarət komandaları arasında keçirilən yarış Atıcılıq Mərkəzinin peyntbol arenasında reallaşıb. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Atıcılıq Federasiyasının birgə təşkil etdiyi birincilik gənclərə vətənpərvərlik ruhunun aşılanması, asudə vaxtlarının idmanla dəyərləndirilməsi və atıcılıq idman növlərinin təbliği məqsədilə keçirilib.

Olimpiya sisteminə əsasən qalibin müəyyənləşdiyi yarışda Naxçıvan Dövlət Universiteti və "Naxçıvan" Universitetinin komandaları finalda bir-birinə rəqib olub. Həlledici oyunun qalibi olan Naxçıvan Dövlət Universiteti peyntbol üzrə muxtar respublika birincisi adına layiq görülüb. "Naxçıvan" Universiteti və Naxçıvan Tibb Kollecini təmsil edən komandalar müvafiq olaraq 2-ci, 3-cü sıralarda qərarlaşıblar.

İlk üçlükdə qərarlaşan komandalara diplom, kubok və peyntbol mərmiləri təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası***
***Gənclər və İdman Nazirliyinin***
***mətbuat xidməti***

## Taksi və avtobus sürücüləri "Sinovac" vaksininə cəlb ediliblər

"Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq muxtar respublikada əhali arasında pandemiyaya qarşı peyvəndləmə davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tədbirlər planına uyğun olaraq vaksinasiya əhalinin hər bir təbəqəsini əhatə edir. Hazırda Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin avtobus və taksi sürücüləri "Sinovac" vaksininə cəlb olunublar.

Bu məqsədlə Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında xüsusi peyvənd otaqları yaradılaraq zəruri avadanlıqlarla təchiz edilib. Müayinədən keçirilən sürücülərin vaksinasiyasına başlanılıb.

Peyvəndləmənin birinci günü ərzində xüsusi işçi qrupu tərəfindən 116 sürücü "Sinovac" vaksininə cəlb edilib. Təhlükəsizliyinə və effektivliyinə görə seçilən bu vaksinasiyada heç bir narahatlıq müşahidə olunmayıb.

Vaksinasiyanın ikinci günü ərzində isə günorta saatlarınadək 88 nəfər ilk doza alıb. Peyvəndləmə bu gün davam etdiriləcək. Qeyd edək ki, 2-ci doza vaksinasiya ilk peyvənddən 28 gün sonra həyata keçirilir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə***
***Nazirliyinin mətbuat xidməti***

## Naxçıvanın ənənəvi mətbəx mədəniyyəti

Yeməyin tarixinə nəzər salsaq, görərik ki, qida insanın yaranması ilə meydana gəlmişdir. Onlar əvvəlcə bunu təbiətdən hazır şəkildə almış, sonralar isə ictimai inkişafın gedişi prosesində özləri çeşidli yeməklər hazırlamaq vərdişinə yiyələnmişlər. Bu baxımdan yeməklər xalqın maddi mədəniyyətinin əsas tərkib hissələrindən birini təşkil edir. Azərbaycan Kulinariya Mərkəzinin prezidenti Tahir Əmiraslanov yazır: "Azərbaycan mətbəxi dedikdə yalnız xörəklər, onların bişirilmə qaydaları deyil, həm də tarix, fəlsəfə, süfrə psixologiyası, adət-ənənələr, xalqın etika və estetikası və sair bu kimi amilləri ahəngdar surətdə birləşdirən mətbəx mədəniyyəti başa düşülür".

AMEA-nın müxbir üzvü Hacı Qədir Qədirzadəyə görə, Azərbaycanda, onun ayrılmaz



tərkib hissəsi olan Naxçıvanda bəzi elmi ədəbiyyatlarda işlədilən "mətbəx mədəniyyəti", "milli mətbəx" ifadələri problemi tam əhatə etmir. Bu problemin bir tərəfidir ki, el arasında "aşpazlıq", "biş-düş" adlanan sahəni əhatə edir. Halbuki mətbəx mədəniyyəti deyiləndə yemək növləri ilə yanaşı, yeməyin harada (təndir, ocaq buxarı, qaz və elektrik cihazları), kim tərəfindən (gəlin, qaynana, evin qızı), hansı yeməyi nə zaman, hansı qabda (qazan, bala qazan, çölmək, badya) bişirilməsi, süfrəyə verilməsi, süfrədən öncə görülən işlər, süfrədən sonra görüləcək işlər və yeyiləcək şirniyyatlar nəzərdə tutulmalıdır.

Bu gün Naxçıvan yeməyini tədqiq etmək olduqca vacib bir məsələdir. Çünki bədnam qonşularımız Azərbaycan Respublikası və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan yeməklərini öz adlarına çıxmış və çıxmaqda da davam etməkdədirlər. Bununla bağlı Azərbaycan Prezidenti cənab İlham Əliyev demişdir: ***"Bizim milli mətbəximiz yenə də ermənilər tərəfindən oğurlanır. Onlar bunu müxtəlif yollarla erməni mətbəxi kimi təqdim etməyə çalışırlar. Halbuki milli yeməklərimizin adları da Azərbaycan sözləridir. Əgər ermənidən soruşsan, dolma ermənicə nə deməkdir, onu deyə bilməz..."***

Qeyd olunmalıdır ki, Naxçıvan mətbəxində, əsasən, heyvandarlıq və bitki mənşəli yeməklər üstünlük təşkil etmişdir. Bitki mənşəli yeməklər içərisində taxıl bitkiləri daha çox olmuşdur. Bundan əlavə, bitki mənşəli məhsullardan tərəvəz məhsulları da xüsusi yerlərdən birini tutmuşdur. Heyvan mənşəli məhsullar isə ət yeməkləri və süd məhsulları olmaqla, iki yerə ayrılmaq mümkündür.

Azərbaycanın digər etnoqrafik bölgələrində olduğu kimi, Naxçıvan bölgəsində də əhalinin yeməkləri gündəlik və mərasim olmaqla iki qrupa bölünür. Mərasim yeməkləri (xeyir və şər) hazırlanma texnologiyası, həcmi, tərkibinin kaloriliyi, çeşidin müxtəlifliyinə görə gündəlik yeməklərdən əsaslı surətdə fərqlənirdi və bu gün də fərqlənməkdədir.

Yuxarıda dedik ki, yeməklər heyvan və bitki mənşəli olmaqla, iki qrupa ayrılır. Bitki mənşəli yeməklər insan həyatında ilk dövrlərdən mühüm rol oynamışdır. Bunlardan yabanı halda bitən qazayağı, şomu, ələyəz, cacıq, şeb, çobankirmidi, xatınbarmağı, unnuca, salmanca, livik və başqalarını misal çəkə bilərik. Həmçinin bitki mənşəli yeməklər içərisində undan hazırlanan ənənəvi yeməklərdən xəşil, umac, tərək, horra, axsan, hərsə və sairi qeyd etmək olar. Bitki mənşəli yeməklərdən olan bostan-tərəvəz məhsullarından qarpız, yemiş, xiyar, lobya (maş), paxla, badımcan, soğan, sarımsaq və digərlərindən həm əhalinin təzə halda, həm də onların bəzilərindən hazırlanan turşu (tutma, şoraba) halında və qurudularaq istifadə olunurdu. Pomidor, kələm, kartof və başqa tərəvəz bitkiləri xalqın yemək menyusuna nisbətən gec daxil olmuşdur.

İnsanların qidaya olan tələbatının bir hissəsi də maldarlıq (ət, süd) məhsulları ilə ödənilir. Buna görə də Naxçıvan mətbəxində bu məhsullar ayrıca yer tutur. Əhali ət yeməklərindən yayda az, qışda isə çox istifadə edir. Ət tədarükü qovurma, qaxac, cızdıqetmə və sair üsulla həyata keçirilir. Qışda daha çox işlədilən ət məhsuluna qovurma deyilir. Qədim mənbələrdə göstərilir ki, türklər əti qurudub, qaxac şəklində saxlayar və çinlilərə satardılar. Qovurmanı qışda, demək olar ki, bir çox yeməyin içərisinə vurarlar.

Naxçıvan mətbəxinə xas olan ət yeməkləri (əsasən, quzu, eyni zamanda cavan mal, müxtəlif ev quşlarının əti) – bozbaş, piti, qovurma şorbası, bozpört, kəlləpaça, kabablar, daş küftə, dolmalar (yarpaq, kələm, üç bacı, soğan) və sair bu kimi xörəklərimiz yüksək zövqlə və ləziz hazırlanır, dad və tamı ilə seçilir. Arxaik dövrlərlə səsləşən ətbişirmə qaydalarından biri də "büryan"dır. Əsasən, Naxçıvan və Qarabağ bölgələri üçün xarakterikdir. "Üzağardan xeyir-şər yeməkləri" hesab olunan ət xörəklərinin Azərbaycanda çoxlu lokal-məhəlli variantları qeydə alınmışdır. Naxçıvanın "gupa"sı, "doğramac"ı, "xan atlandı"sı, "ət



şamısı" bələlərindəndir. Diyarımızda maldar tayfaların ət məhsullarından hazırladıqları ənənəvi yeməklərdən biri də "bağırbeyin" və "qan bozbaş" yeməyi olmuşdur.

Naxçıvan əhalisi minilliklərboyu gündəlik və qışa tədarük edilən qida məhsulları içərisində süd-ağartı məhsullarına xüsusi yer vermişdir. Bunlardan süd, qatıq, yağ, xama, pendir, qurut, cortdan, şor, lor və sairi misal göstərmək olar. Onu da qeyd edək ki, ət yemək ilkin çağlara aid edilsə də, süd məhsullarından istifadə sonradan qazanılmışdır. Süd qaynar şəkildə içilir, ondan müxtəlif yeməklər hazırlanır. Bunlardan bəziləri gündəlik yemək üçün istifadə olunur, bəziləri isə ehtiyat ərzaq kimi tədarük edilirdi. Süd məhsulları içərisində süfrənin "şahı" adlandırılan qış üçün xüsusi hazırlananlardan biri pendirdir. Bölgədə aşağıdakı pendir növləri: üzlü, üzsüz, qaşar, sərmə, axtarma, ovma, döymə, baş, motal qeydə alınmışdır. Bundan əlavə, süd məhsulları içərisində qış üçün tədarük edilənlərdən biri də qurutdur. Qışda qurutdan qurutaşı, kələci (qurut kələcisi) bişirilirdi.

XIX əsrin əvvəllərinə aid olan rus mənbələrində Naxçıvanla bağlı yazılır ki, Naxçıvan əyalətində ailələr gündə üç dəfə yemək yeyirlər. Axşam süfrədə çox yemək olur. Onlar axşamlar, əsasən, süd yeməkləri yeyərlər, süfrədə daha çox qaymaq və pendir olur. Sonra müəllif sözünə davam edərək yazır ki, burada əhali yemizi tez yeyər və süfrə başında danışmazlar.

İlkin müşahidələr, toplanmış ədəbiyyat materialları sübut edir ki, hazırda mətbəx mədəniyyətimiz millilik baxımından ciddi transformasiyaya uğramaqla qədim dövrdə formalaşmış bir sıra xörəklər unudulmuşdur. Gənc qızların çoxu həmin xörəkləri, nəinki hazırlamağı bacarmır, hətta onların adlarını belə, bilmirlər. Bəzi ənənəvi yeməkləri xalqımızın yaddaşına qaytarmaq mümkündür.

***Fidan MÜRŞÜDLÜ***
***Naxçıvan şəhər 10 nömrəli***
***tam orta məktəbin şagirdi,***
***"Sabahın tədqiqatçıları" layihəsi,***
***dosent Asəf ORUCOV***
***layihənin rəhbəri***


### İtmişdir

Şahbuz rayonunun Kükü kəndində yaşamış Səfərov Etibar Əli oğlunun adına verilmiş JN-0054 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayon Daşarx stansiyasının sakini Abbasov Namiq Cahangir oğlunun adına olan JN-248 inventar nömrəli, 10218038 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Oğlanqala kəndində yaşamış Mehdiyev Oruc Abbas oğlunun adına verilmiş JN-791A və JN-791B nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamələr" itdiyindən etibarsız sayılır.

***

Şərur rayon Maxta kənd sakini Süleymanov Teyyub Elxan oğlunun adına verilmiş 102013003534 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Səfərov Elçin Şahin oğlunun adına olan VÖEN itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 408